# Avropa Parlamentində "Qarabağ müharibədən sonra" adlı fotosərgi açılıb

**Avropa Parlamentinin Altiero Spinelli binasında Azərbaycan Respublikasının Belçikadakı səfirliyinin təşkilatçılığı ilə məşhur fransız fotoqrafı Qreqori Herpenin "Qarabağ müharibədən sonra" adlı fotosərgisi açılıb.**



Qreqori Herpe 2021-ci və 2022-ci illərdə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Parisdə fəaliyyət göstərən Azərbaycanın Dostları Assosiasiyasının təşkilatçılığı ilə ölkəmizin Qarabağ bölgəsini ziyarət edib, Ermənistanın otuzillik işğalı nəticəsində dağıdılmış tarixi və mədəni irs nümunələrimizi, Azərbaycan tərəfindən aparılan bərpa və minatəmizləmə işlərini lentə alıb. Səfərlər zamanı müəllifin çəkdiyi fotoşəkillər 2021-ci ildə Azərbaycanın Parisdəki səfirliyində nümayiş etdirilib.

Sərginin bu günlərdə olan rəsmi açılış mərasimində çıxış edən Avropa Parlamentinin üzvü, Avropa Parlamenti-Azərbaycan qrupunun rəhbəri Andris Ameriks nümayiş etdirilən fotoşəkillərin müharibənin yaratdığı dağıntıların və ağrıların kədərini əks etdirdiyini və dərin məna daşıdığını qeyd edib.

Açılışda Avropa Parlamentinin, diplomatik korpusun, kütləvi informasiya vasitələrinin, Avropada yaşayan Azərbaycan diasporunun nümayəndələri və Belçikada təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

Azərbaycan. - 2023.- 10 iyun.- S.11.